1 - 2_Layout 1 30.10.2023 10:18 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN
DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 21 (660)

31 oktyabr 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# MÜSTƏQİLLİYİMİZİN XANKƏNDİ ZİRVƏSİ

**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "Müstəqilliyimizin Xankəndi zirvəsi" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

"...Biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir.

...Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər".

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin oktyabrın 15-də, müstəqilliyimizin bərpasının 32-ci ildönümü ərəfəsində Xankəndidən xalqımıza müraciətində qürurla vurğuladığı kimi, Azərbaycanın Qarabağda suverenliyini bərpa etməsi müstəqillik aktımızın qızıl möhürü, tarix salnamələrimizə silinməz hərflərlə yazılan və min illər sonra belə fəxrlə anılacaq böyük qələbədir.



### Bayram bayrama qarışıb

Azərbaycan adına ard-arda qazanılan tarixi nailiyyətlər, uğurlar, qələbələr, zəfərlər sayəsində bayramlarımızın bayramlarımıza qarışdığı, təqvim günlərimizin bir-bir al qırmızı rəngə boyandığı fəxrli, qürurlu, təntənəli günlər yaşayırıq...

Ağdərədə, Əsgəranda, Xocalıda, Xankəndidə məğrur-məğrur dalğalanan üçrəngli, ay-ulduzlu müqəddəs bayrağımıza baxdıqca fərəhdən köksümüzün qabardığı, sevincdən göz yaşlarına boğulduğumuz, İlahi xoşbəxtlik duyduğumuz tarixi anlar, günlər, aylar, illər yaşayırıq...

Azərbaycanlı olmağımızla fəxr edirik!

Müasir müstəqil Azərbaycanın bünövrəsini qoyan və onu inkişaf etdirən Ulu Öndər Heydər Əliyevin, torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərimizin ruhları qarşısında baş əyirik!

20 illik qısa zaman diliminə əsrlərin fövqündə olan zəfərlər sığdıraraq Azərbaycan xalqını başıuca, qürurlu, bəxtəvər edən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə tükənməz minnətdarlıq duyuruq!

### Bütöv Azərbaycan naminə

Son 35 ildə ağır məhrumiyyətlərdən, çətinliklərdən, sınaqlardan çıxaraq addım-addım əbədi bərqərar olduğumuz qələbə zirvəsinə yetmişik.

1988-ci ildən başlayaraq xalqımıza zülmlər, ağrı-acılar yaşadan erməni faşizmindən, terrorundan, separatizmindən qurtulmuşuq. Sərsəm "miatsum" ideyasının arxasınca düşərək millətimizin qatilinə çevrilən erməni canilərini haqq-ədalət qarşısında cavab verməyə məcbur etmişik.

Amma hər biri barəsində cild-cild kitablar yazılacaq bu şanlı və şərəfli qələbələri əldə edənə qədər xeyli ağır, çətin, mürəkkəb, məsuliyyətli və mübarizələrlə dolu bir yol qət etmişik.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevlə birgə qarşılaşdığımız təhlükədən xilas yoluna qədəm qoyan Azərbaycan Prezident İlham Əliyevin 20 illik yorulmaz fəaliyyəti, şəxsi əzmi və qətiyyəti sayəsində milli maraqlarını təmin edərək tarixindəki ən böyük qələbələrə yetişib.

### Xilas günü

Qarabağda erməni separatizminin baş qaldırdığı və xalqımızın təhlükə ilə üzləşdiyi məşum bir zamanda - 1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazanaraq "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etmişdi.

Amma gənc respublika həmin dövrdə ağır sınaqlarla, faktiki olaraq müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə idi. Daxili çəkişmələrin hökm sürdüyü, hakimiyyət davasının aparıldığı həmin hərc-mərclik dövründə ölkəmiz vətəndaş müharibəsinin astanasında, ağır siyasi, iqtisadi böhranların məngənəsində çırpınırdı. Digər yandan da torpaqlarımız Ermənistan silahlı qüvvələri tərəfindən bir-bir işğala məruz qalır, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşərək ağır məhrumiyyətlər içərisində ölkəmizin digər rayonlarında yaşamağa məcbur olurdular.

Hakimiyyət kürsüsünə zorla yiyələnərək xalqı istibdada, zülm-zillətə düçar etməkdən, Vətəni iştahlarının qurbanına çevirməkdən başqa məziyyətləri olmayan antimilli qüvvələr müstəqilliyini yenicə qazanmış Azərbaycanı bir ölkə olaraq dünya xəritəsindən silinmək kimi dəhşətli sona yaxınlaşdırırdılar. Erməni qatilləri tərəfindən soyqırımları ilə üzləşən, yurdlarından didərgin salınan, ölkədəki iqtisadi böhran sayəsində yeməyə quruca çörək tapmayan xalq çox çarəsiz, çıxılmaz vəziyyətdə idi.

Məhz bu cür çətin, çoxsaylı təhlükə ilə baş-başa olduğumuz bir zamanda, 1993-cü ilin iyununda Tanrı Ulu Öndər Heydər Əliyevi Azərbaycan xalqına xilaskar kimi yetirdi.

Tarixinin ağır sınaqlı dönəmində müdrik xalqımız təkidli tələbi ilə Heydər Əliyevi hakimiyyətə qaytarmaqla Azərbaycanı XX əsrdə yenidən müstəqilliyini itirmək təhlükəsindən qurtardı. Azərbaycanlı olması ilə daim fəxr edən Ulu Öndər apardığı məqsədyönlü daxili və xarici siyasət sayəsində qısa müddətdə ölkəmizi böhrandan azad edərək xilas yoluna çıxardı.

### Qələbəyə inamla

2003-cü il oktyabrın 15-də Qurani-Kərimə əl basaraq Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edəcəyinə and içən Ulu Öndər Heydər Əliyevin siyasi davamçısı Prezident İlham Əliyev ötən 20 il ərzində verdiyi bütün vədləri layiqincə yerinə yetirərək Azərbaycanı tarixində ən qürurlu məqama yetirdi.

Hakimiyyətə gəlməsinin 20-ci ildönümü günündə - 2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan Bayrağını ucaldan qalib lider İlham Əliyev özü bu barədə deyirdi: "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik".

### Qarabağ Azərbaycandır!

Düz 100 il əvvəl, 1923-cü ildə Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Xalqımızın başına olmazın müsibətlər açılan bu məşum yüz ilə də son nöqtəni müzəffər lider İlham Əliyev qoydu. Sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri nəticəsində Qarabağdakı quldur yuvası dağıdıldı, erməni separatizmi məhv edildi. Azərbaycanlılara qarşı soyqırımları həyata keçirən, qətliamlar törədən separatçı canilər isə əlləri qandallı, başları aşağı halda Bakıya ədalət mühakiməsinə gətirildilər. İndi onlar Azərbaycan qanunları qarşısında törətdikləri cinayət əməllərinin haqq-hesabını verirlər.

Oktyabrın 15-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndidə, Əsgəranda, Xocalıda, Ağdərədə bayrağımızı ucaltması Azərbaycan xalqının illərdir qəlbində dövr edən sağalmaz Vətən yarasına məlhəm çəkdi. Bayrağımızın ana yurdun hər yerində dalğalanmasından böyük qürur hissi keçirdik, torpaqlarımız uğrunda canını qurban verən bütün şəhidlərimizin ruhunun şad olmasına görə ürəyimiz dinclik tapdı.

"Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu qələbəyə layiqik. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" deyə fəxarət hissini Xankəndidən bütün dünyaya bəyan edən Prezident İlham Əliyevin vurğuladığı kimi, ana yurdumuz Azərbaycana hər zaman qələbələr yaraşır!

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNDƏN

Oktyabrın 27-də Daxili İşlər Nazirliyində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin, şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin vəziyyətinə, eləcə də cari ilin 9 ayının yekunlarının müzakirəsinə həsr olunmuş onlayn formatda Kollegiya iclası keçirilib.



İclası giriş sözü ilə açan Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov hər üç məsələnin fundamental insan hüquqlarının müdafiəsində, vətəndaş məmnunluğunun təmin edilməsində, hər bir şəxsin qanuni mənafelərinin cinayətkar qəsdlərdən qorunmasında mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Müzakirələrə başlamazdan əvvəl nazir V.Eyvazov Xankəndi şəhəri və ona yaxın ərazilərdə yerləşmiş Ermənistan ordusunun qalıqlarının basdırdığı minaların bu ilin sentyabr ayının 19-da partlaması nəticəsində daha 6 nəfərin, o cümlədən polis əməkdaşlarının həlak olması, həmin gün Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz tərəfindən həyata keçirilmiş lokal antiterror tədbirlərində iştirak edən Daxili İşlər Nazirliyinin şəxsi heyətindən 20 nəfərin şəhid olmasını və 24 nəfərin yaralanmasını, ümumilikdə isə Vətən müharibəsi də nəzərə alınmaqla Daxili Qoşunların və polisin 78 şəhid verdiyini və 370 nəfərin yaralandığını diqqətə çatdırıb və bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

General-polkovnik V.Eyvazov oktyabrın 15-də də ölkəmizin növbəti dəfə tarixi anların və hadisələrin şahidi olduğunu, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Xankəndidə, Xocavənddə, Xocalıda və terrorçulardan təmizlənmiş digər ərazilərdə Dövlət Bayrağımızı ucaltdığını, habelə Daxili İşlər Nazirliyinin Xankəndi Şəhər Polis Şöbəsinin yaradıldığını, Xocalı, Tərtər və Xankəndiyə müvəqqəti komendantların təyin edildiyini, işğaldan azad edilmiş həmin ərazilərdə təhlükəsizliyin və asayişin təmin edilməsi üçün bütün zəruri tədbirlər görüldüyünü, hər bir evin, hər bir binanın və infrastruktur obyektlərinin mühafizəyə götürüldüyünü, qanunsuz silahlı birləşmələrin atıb getdikləri mövqelərdən çoxsaylı silah-sursatın və hərbi texnikanın aşkarlandığını qeyd etdi.

Bütövlükdə polisin və Daxili Qoşunların Qarabağın bütün ərazisində xidməti vəzifələri böyük məsuliyyətlə, peşəkarlıqla yerinə yetirdiyini, təhlükəsizliyi qoruduğunu, bu prosesin davamlı olacağını vurğuladı.

Nazir daha sonra bildirib ki, daxili işlər orqanları və Daxili Qoşunlar qanunla müəyyən edilmiş vəzifələri cari ilin 9 ayında da layiqincə yerinə yetirib. Ümumi cinayətlərin açılması 86,8 faiz təşkil edib, Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 26.778 cinayətin 88,6 faizi açılıb.

Baş Prokurorluqla birgə görülmüş tədbirlərlə keçmiş illərdən bağlı qalmış 336, o cümlədən bir neçə xüsusilə ağır cinayətin açılması təmin edilib.

Qəsdən sağlamlığa ağır zərər vurmaların, xuliqanlıqların, quldurluqların, dələduzluqların, hədə-qorxu ilə tələb etmələrin, soyğunçuluqların və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb.

Odlu silahın tətbiqi ilə törədilən cinayətlər, oğurluqlar, quldurluqlar, soyğunçuluqlar, xuliqanlıqlar, avtonəqliyyat vasitəsinin qaçırılması faktlarının sayı azalıb.

Ağır və xüsusilə ağır cinayətlər törətmiş 466 nəfərdən ibarət 178 cinayətkar qrup zərərsizləşdirilib. Axtarılan təqsirləndirilən şəxslərin 83,3 faizi tutulub. Törədilmiş cinayətlər nəticəsində vətəndaşlara dəymiş maddi ziyanın 79, xırda talamalar nəticəsində vurulmuş ziyanın 93,1 faizi ödətdirilib.

Ölkədə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri də nəzarətdə saxlanılıb. Qanunsuz dövriyyədən ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 ton 19 kiloqram çox – yəni 4 ton 18 kiloqram narkotik vasitə və 343 kiloqram psixotrop maddə çıxarılıb, 244 nəfərdən ibarət 110 cinayətkar qrup zərərsizləşdirilib və bu cinayətlərə görə ümumilikdə 6.344 nəfər məhkəmə məsuliyyətinə verilib. Antinarkotik təbliğat sahəsində işlər də davamlı olmaqla təhsil müəssisələrində 1.028 maarifləndirmə tədbiri keçirilib.

*Davamı 2-ci səhifədə.*

2-3_Layout 1 30.10.2023 10:48 Page 1



# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNDƏN

*Əvvəli 1-ci səhifədə.*

Yol hərəkəti təhlükəsizliyinin təmini və təşkili, qəzaların qarşısının alınması, sürücü intizamının artırılması məqsədilə davam etdirilən tədbirlərlə respublika üzrə qeydə alınmış yol-nəqliyyat hadisələrinin sayı 55 fakt, qəzalar nəticəsində xəsarət alanların sayı 65 nəfər azalıb. Müəyyən edilmiş yol hərəkəti qayda pozuntularının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 milyondan çox artaraq 5,1 milyona çatıb və onların 64 faizi xüsusi texniki vasitələrlə aşkarlanıb.

Vətəndaşların müraciətlərinə baxılması, qəbulların keçirilməsi, şikayətlərə çevik reaksiya verilməsi sahəsində görülən işlər ötən 9 ayda da gündəlik nəzarətdə qalmaqla daxil olmuş 75.146 müraciətə baxılıb, habelə bu mühüm işə paralel olaraq kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 9 şəhər və rayonunda 3.000-ə yaxın vətəndaşın qəbulu həyata keçirilib. Qaldırılan problemlərin həlli təmin edilib, təşəbbüskarlardan 2.500-dən çox minnətdarlıq məktubları alınıb.

Gündəlikdəki məsələlər üzrə nazirliyin aidiyyəti baş idarələrinin və bir sıra ərazi orqanlarının rəisləri görülmüş işlər, əldə edilmiş nəticələr, fəaliyyətin daha da yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər barədə məruzə ediblər.

İclasa yekun vuran nazir V.Eyvazov cari ilin 9 ayında cinayətkarlığa qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmini sahəsində qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini vurğulayıb.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əldə olunmuş müsbət nəticələri yüksək qiymətləndirən nazir bu istiqamətdə fəaliyyətin daha böyük əzm və qətiyyətlə həyata keçirilməsini tapşıraraq diqqəti qarşıda duran vəzifələrə çəkib, həmçinin yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirən hər bir şəxsə, o cümlədən bloggerlərə və digər ictimai fəallara, qeyri-hökumət təşkilatlarının nümayəndələrinə və media mənsublarına təşəkkürlərini bildirib.

Paytaxtda nəqliyyat sıxlığının aradan qaldırılması ilə bağlı görülən işlərin üzərində də dayanan nazir yolların kənarında qeyri-qanuni saxlanılan və nəqliyyatın normal axınına maneçilik törədən avtomobillərin kənarlaşdırılmasının və digər qanunazidd halların aradan qaldırılmasının, ümumən bu sahədə tədbirlərin gücləndirilməsinin zəruriliyinə toxunub, hərəkətin təhlükəsizliyinin təmini ilə əlaqədar qarşıda duran vəzifələri müəyyən edib və aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaş məmnunluğunun təmin edilməsində, dövlətə inam və etimadın güclənməsində böyük əhəmiyyət kəsb edən müraciətlərə baxılması işinə xüsusi diqqət çəkən nazir V.Eyvazov




şikayətlərə çevik reaksiya verilməsi işinin yeni keyfiyyət səviyyəsinə yüksəldilməsi üçün əlavə tapşırıqlar verib.

Nazir bəzi ərazi orqanlarının fəaliyyətində olan müəyyən nöqsan və çatışmazlıqlara da diqqət çəkərək onların aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini, hər bir şəxsin qanuni mənafeyinin, hüquq və azadlığının bundan sonra da etibarlı qorunmasını, bütövlükdə vətəndaş məmnunluğunun davamlı surətdə təmin olunmasını, şəxsi heyətin etik davranış qaydalarına daim riayət etməsini, qanunçuluğun möhkəmləndirilməsini və peşəkarlıq səviyyəsinin günbəgün artırılmasını tələb edib.

Kollegiya iştirakçılarının diqqətini ötən illər ərzində beynəlxalq təşkilatların nümayəndə heyətləri ilə baş tutmuş görüşlərə də yönəldən nazir V.Eyvazov ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirləri xüsusi vurğulayaraq qeyd edib ki, bu sahədə fəaliyyətin effektivliyinin artırılması, institusional mexanizmlərin təkmilləşdirilməsi üzrə aparılan müzakirələr və görülmüş işlər çox faydalı olub.

Konkret olaraq, fəaliyyətin müasir tələblərə və mütərəqqi beynəlxalq təcrübəyə uyğun qurulmasında mühüm əhəmiyyət kəsb edən şəxsi heyətin professional hazırlığının artırılması məqsədilə son 5 ildə təkcə insan hüquqları üzrə Azərbaycanda və xarici dövlətlərdə keçirilən seminarlarda, təlim kurslarında, konfranslarda və digər tədbirlərdə daxili işlər orqanlarının 3000-dən çox əməkdaşının iştirak etdiyini, Polis Akademiyasında keçirilən məşğələlərə Avropa ekspertlərinin dəvət edildiyini, treninqlərin onlar tərəfindən də keçiriləcəyini bildirib, habelə aidiyyəti tədris proqramlarının qısa müddətdə yenilənməsinə dair tapşırıqlar verib. "Açıq hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair" Milli Fəaliyyət Planları əsasında idarədaxili nəzarət mexanizmlərinin, aidiyyəti vəzifə təlimatlarının təkmilləşdirildiyini, aidiyyəti qanunvericilik aktlarına beynəlxalq təcrübəyə uyğun dəyişikliklər edilməsi üçün layihələrin hazırlandığını, tutulmuş və həbs edilmiş şəxslərin beynəlxalq konvensiyalarda təsbit olunmuş bütün hüquqlarının və dindirmələrin şəffaflığının təmin edilməsi mövzularında respublikanın istintaq qurumlarının əməkdaşları üçün virtual təlimlərin təşkil edildiyini nəzərə çatdırıb. Nazirlik tərəfindən həyata keçirilən qətiyyətli tədbirlərin məntiqi nəticəsi kimi şəxsi heyət arasında neqativ halların minimuma endiyini, ötən 5 ildə xidməti intizam və etik davranış qaydalarını pozmuş 1.286 əməkdaş barəsində araşdırmalar aparılaraq 121 nəfərin xidmətdən xaric edildiyini, 139 nəfərin tutduğu vəzifədən azad olunduğunu, 1.026 nəfər haqqında başqa növ məsuliyyət tədbirləri görüldüyünü, cari ilin ötən dövründə isə polisə gətirilmiş şəxslərə qarşı kobudluğa yol vermiş 7 əməkdaşın xidmətdən xaric edildiyini, 16 əməkdaşın tutduğu vəzifədən azad olunduğunu, daha 21 əməkdaşa başqa növ intizam tənbehlərinin verildiyini qeyd edib.

Nazir bütün ərazi polis orqanlarının rəislərindən insan hüquqlarının müdafiəsi sahəsində vəziyyətin, xüsusən tutulmuş və ya həbs edilmiş şəxslərin hüquqlarının qorunması işinin gündəlik nəzarətdə saxlanılmasını tələb edib, onlara qarşı kobudluğun, hər hansı formada pis rəftarın yolverilməzliyini, qanundankənar davranışın ciddi məsuliyyət doğuracağını, normativ-hüquqi aktların tələblərinə dönmədən riayət olunmasının vacibliyini xatırladıb, bu istiqamətlərdə fəaliyyətin nəticələrinə görə hər bir rəhbər vəzifəlinin şəxsən məsuliyyət daşıdığını nəzərə çatdırıb.

Bütövlükdə Daxili İşlər Nazirliyinin beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini, qarşılıqlı əlaqələrin gələcəkdə də konstruktiv şəkildə həyata keçiriləcəyini ifadə edib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya, şəxsi heyətinin fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada asayişin, təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da böyük əzm və qətiyyətlə davam etdiriləcəkdir.

# DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Oktyabrın 28-də Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığının vəziyyətinə həsr olunmuş növbəti iclası keçirilib.

İclası giriş sözü ilə açan Hərbi Şuranın sədri, Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən, məqsədyönlü siyasət nəticəsində aparılan dövlət quruculuğu işləri Silahlı Qüvvələrin inkişafında öz müsbət təsirini göstərmişdir. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində ölkənin suverenliyi tam bərpa edilmişdir.

Üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti respublikada, o cümlədən işğaldan azad olunmuş ərazilərdə ictimai təhlükəsizliyin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə, bütövlükdə qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrasında yüksək hərbi intizam, peşəkarlıq və qətiyyətlilik nümayiş etdirmişdir. Hazırda şəxsi heyət polis əməkdaşları ilə birgə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ictimai asayişin və təhlükəsizliyin təmini üzrə xidməti vəzifələrin icrasını əzmlə davam etdirir.

Daha sonra Daxili qoşunlar komandanının müavini - maddi-texniki təminat idarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığının vəziyyəti haqqında məruzə ilə çıxış edib.

Bildirilib ki, qoşun təsərrüfatının qış mövsümünə hazırlığı hissə və bölmələrin döyüş hazırlığının fasiləsiz təmin edilməsində, döyüş təlimində, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində, şəxsi heyətin maddi-məişət və mədəni tələbatlarının ödənilməsində, kazarma-yaşayış, texniki və tibbi təyinatlı obyektlərin, silah, texnika və avadanlıqların hazırlığında, maddi-texniki vasitələrin qorunub saxlanılmasında, ümumilikdə qoşunların hərtərəfli təminatında prioritet məsələlərdəndir. Bütün bunlar hissə və bölmələrin döyüş hazırlığının fasiləsiz təmin edilməsinə və xidməti-



döyüş tapşırıqlarının yerinə yetirilməsinə əsas verir.

Qeyd edilib ki, qışa hazırlıq işlərinin planlı şəkildə aparılmasının təşkili məqsədilə, Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı tərəfindən təsdiq olunmuş tədbirlər planının icrası ilə bağlı Ali Hərbi Məktəbdə və hərbi hissələrdə yaradılmış komissiyalar tərəfindən yaşayış və qeyri-yaşayış binalarına, hərbi təsərrüfat obyektlərinə, istilik, elektrik, qaz, su və kanalizasiya sistemlərinə texniki baxışlar keçirilib, görüləcək işlərin həcmi müəyyən edilib, müvafiq aktlar tərtib edilərək işlərin yerinə yetirilməsi məqsədilə ehtiyac duyulan avadanlıqlar və materialların alınması üçün zəruri tədarük və təchizat həyata keçirilib.

Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb edilmiş şəxsi heyətin məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yerləşmə və xidmətaparma yerləri zəruri əmlak və avadanlıqlarla təmin edilib.

Qış mövsümünə keçidlə əlaqədar qoşunların şəxsi heyəti mövsümi geyim əmlakları ilə təmin olunub, ərzaq məhsullarının tədarük edilməsi, normalara uyğun şəxsi heyətə çatdırılması, xörəklərin keyfiyyəti, əsgər yeməkxanalarının və iaşə obyektlərinin sanitar vəziyyəti nəzarətdə saxlanılıb, xidməti heyvanlar arasında baytar-profilaktiki və müalicə tədbirləri həyata keçirilib.

Həmçinin qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə nəqliyyat vasitələrinin




qış mövsümündə fasiləsiz istifadəsini təmin etmək üçün müvafiq tədbirlər həyata keçirilərək, park təsərrüfatlarının hazırlığı yoxlanılıb.

Bundan əlavə, soyuq hava şəraitində şəxsi heyətin sağlamlığının qorunması ilə əlaqədar qabaqlayıcı profilaktik tədbirlərin həyata keçirilməsi barədə də məruzə edilib.

General-mayor F.Səmədov çıxışının sonunda əminliklə bildirib ki, Daxili Qoşunların Baş İdarəsinin Maddi-texniki təminat İdarəsi və hərbi hissə komandirlərinin maddi-texniki təminat üzrə müavinləri 2023-2024-cü illərin qış mövsümündə şəxsi heyətin sağlamlıqlarının qorunması, onların məişət şəraiti və təminatı, eləcə də texnikanın və silahların istismarının təşkil olunması üzrə qış mövsümi ilə bağlı üzərilərinə düşən vəzifələri tam həcmdə həyata keçirəcəklər.

Hərbi Şuranın iclasında mövcud vəziyyət, fəaliyyətdə qazanılmış nailiyyətlər, eləcə də yol verilmiş nöqsan və çatışmazlıqların yaranma səbəbləri, onların aradan qaldırılması istiqamətində görülən işlər barədə hərbi hissə komandirlərinin maddi-texniki təminat üzrə müavinlərinin hesabat-çıxışları dinlənilib.

İclasa yekun vuran general-leytenant Ş.Məmmədov qış mövsümünə hazırlıqla əlaqədar şəxsi heyətin maddi-texniki və tibbi təminatı, sosial-məişət şəraitinin yaxşılaşdırılması və texnikanın istismarı üzrə tədbirlər planında nəzərdə tutulmuş işlərin tam olaraq başa çatdırılması üçün aidiyyəti şəxslərə tapşırıqlarını verib.

Əminliklə bildirilib ki, Daxili Qoşunların şəxsi heyəti qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarının icrasını təmin edəcək, yüksək döyüş hazırlığını saxlamaqla qış mövsümünü uğurla başa vuracaqdır.

**Mətbuat xidməti**

# BAŞ İDARƏDƏ QƏBUL

Oktyabrın 24-də Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Pakistan İslam Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş hərbi attaşesi polkovnik Farhan Hayderi qəbul edib.

General-leytenant Ş.Məmmədov qonağı salamlayaraq Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasındakı mövcud olan çoxşaxəli əlaqələrin yüksək inkişafını vurğulayıb və iki dost ölkənin müvafiq qurumları arasında hərbi əməkdaşlıq münasibətlərinin uğurla inkişaf etməsindən danışıb. Eləcə də Pakistanın 44 günlük Vətən müharibəsi zamanı ölkəmizə göstərdiyi dəstəyin xalqımız tərəfindən müsbət qiymətləndirildiyini bildirib.

Ölkələrimiz arasında hərbi əməkdaşlığı yüksək dəyərləndirən daxili qoşunların komandanı Pakistan İslam Respublikasının Hərbi Attaşeliyi ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında son illərdə yaranmış qarşılıqlı əməkdaşlıq münasibətlərinin bundan



sonra da müvəffəqiyyətlə davam edəcəyinə əminliyini ifadə edib.

Qəbul üçün minnətdarlığını bildirən polkovnik F.Hayder ikitərəfli münasibətlərin ölkələrin gələcək inkişafına böyük təkan verəcəyini söyləyib. Azərbaycanın Qarabağ bölgəsində cari ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən uğurlu antiterror tədbirlərinə görə təbriklərini çatdıraraq, bu döyüş əməliyyatının gələcəkdə digər ölkələrin müvafiq qurumları üçün nümunə olacağına inandığını deyib. Həmçinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Pakistan İslam Respublikasının bir sıra hərbi qurumları arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi üçün bütün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə əməkdaşlığın bundan sonra da zəruriliyi vurğulanıb.

---

Oktyabrın 27-də Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Türkiyə Respublikasının Azərbaycan Respublikasında yeni təyin edilən hərbi attaşesi general-mayor Soner Oruçoğlunu qəbul edib.

Qonağı səmimi salamlayan general-leytenant Ş.Məmmədov onu ölkəmizdə fəaliyyətə başlaması münasibətilə təbrik edib, Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin dərin tarixi köklərə malik olduğunu bildirib. O, hazırda ölkələrimiz arasında mövcud olan çoxşaxəli əlaqələrin yüksək inkişafını vurğulayaraq, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq münasibətlərinin də uğurla inkişaf etməsindən danışıb. Xüsusi olaraq Vətən müharibəsi dövründə qardaş Türkiyənin ölkəmizə göstərdiyi siyasi, mənəvi və diplomatik dəstəyin xalqımız tərəfindən olduqca yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın mövcudluğunu müsbət hal kimi qiymətləndirən daxili qoşunların komandanı, Türkiyə Respublikasının Silahlı Qüvvələri, o cümlədən Jandarm Baş Komandanlığı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında



qarşılıqlı dostluq və əməkdaşlıq münasibətlərinin bundan sonra da müvəffəqiyyətlə davam edəcəyinə əminliyini ifadə edib. Xüsusilə, Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan zabitlərinin təlim-tədris prosesinin inkişaf etdirilməsindəki önəmli fəaliyyətləri qeyd olunub.

Səmimi qəbul üçün təşəkkürünü bildirən general-mayor S.Oruçoğlu ikitərəfli münasibətlərin ölkələrin gələcək inkişafına böyük təkan verəcəyini vurğulayıb. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Türkiyə Respublikasının bir sıra qurumları arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi üçün lazımi dəstək verəcəyini də əlavə edib.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə qeyd olunub ki, iki ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da uğurla davam edəcək.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

3_Layout 1 30.10.2023 10:21 Page 1



# HƏRBİ HİSSƏLƏRDƏ ŞƏHİD AİLƏLƏRİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB





Oktyabrın 6-da 12565, 12-də 16075, 13-də 12318 və 23-də 16073 saylı hərbi hissələrdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 44 günlük Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularının ailə üzvlərinin bir qrupu ilə görüş keçirilib. 12565 saylı hərbi hissədə Naxçıvan Muxtar Respublikasının Daxili işlər naziri polis general-mayoru Süleyman Neymətov, hərbi hissənin komandiri general-mayor Səlim Niftalıyev, 16075 saylı hərbi hissədə DİN-in Baş cinayət axtarış idarəsinin rəisi polis general-mayoru Arzu Daşdəmirov, Sumqayıt şəhər polis idarəsinin rəisi polis polkovniki Fəqan Azadəliyev, 12318 saylı hərbi hissədə Daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov, Hacıqabul rayon polis şöbəsinin rəisi polis polkovnik-leytenantı Anar Xəlilov, 16073 saylı hərbi hissədə DİN-in Nəqliyyatda baş polis idarəsinin rəisi polis general-mayoru Zaur Abdullayev tədbirlərdə iştirak ediblər.

Tədbir iştirakçıları tərəfindən hərbi hissələrdə şəhidlərin xatirəsinə ucaldılan abidələr ziyarət edilərək, önlərinə gül dəstələri qoyulub. Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həyatını qurban vermiş hərbi qulluqçularımızın əziz xatirəsi ehtiramla anılıb.

Şəhid ailələrinin üzvləri ilə keçirilən görüşlərdə çıxış edən vəzifəli şəxslər Vətən müharibəsində qazanılan möhtəşəm hərbi zəfər nəticəsində ölkəmizin ərazi bütövlüyünün, 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilən lokal xarakterli antiterror tədbirlərinin yekunu olaraq Qarabağ bölgəsində tam suverenliyimizin bərpa edildiyini diqqətə çatdırıblar. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz öz qalibiyyəti ilə şərəfli tarix yazıb. Xalqımıza qələbə sevincini bəxş edən şəhidlərimizin və qazilərimizin fədakarlığının heç vaxt unudulmayacağı vurğulanıb.

Bildirilib ki, ölkəmizdə şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinin və qazilərin sosial rifahının yüksəldilməsi, habelə mənəvi qayğı ilə əhatə olunmaları istiqamətlərində böyük işlər görülüb. Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri, eləcə də qazilərlə bağlı məsələlərin daim xüsusi diqqət mərkəzində saxlanıldığı deyilib.

Görüşdə iştirak edən şəhid ailələri üzvlərinin müraciətləri dinlənilərək qeydiyyata alınıb, qaldırılan bir sıra məsələlər yerindəcə həll olunub. Bununla yanaşı, müraciətlərdə səsləndirilən bəzi məsələlərin mahiyyəti ilə bağlı maarifləndirici söhbətlər aparılıb, müvafiq qanunvericiliyin tələbləri geniş izah edilib.





Şəhid ailələrinin üzvlərinə sovqatlar verilib. Onlar belə görüşlərin təşkilinə, habelə göstərilən diqqət və qayğıya görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə və Daxili Qoşunların komandanlığına dərin minnətdarlıqlarını bildiriblər.

**Yalçın Abbasov**

*Şəhidlərimiz*

# VƏTƏNİN MÜSƏLLƏH ƏSGƏRİ, XALQIN LAYİQLİ ÖVLADI OLDU...

44 günlük Vətən müharibəsindən sonra ölkəmiz müasir tarixinin qalibiyyət mərhələsinə qədəm qoyub. Ermənistanın əsassız ərazi iddiaları səbəbindən başlayan və torpaqlarımızın işğalına gətirib çıxaran çoxillik münaqişə sülh yolu ilə deyil, döyüş meydanında şanlı hərbi zəfərimizlə öz həllini tapıb. Bu gün Şərqi Zəngəzur və Qarabağ bölgələrində elə bir şəhər, qəsəbə, kənd yoxdur ki, orada üçrəngli bayrağımız ucaldılmasın. İşğal ləkəsi düşmən tapdağında olmuş yurdlarımızdan silinib. Şəhidlərimizin, soyqırım qurbanlarımızın, qazilərimizin, qaçqınlar və məcburi köçkünlərimizin qisasları alınıb.

Müharibə hər bir xalq üçün ölüm-qalım sınağı, şərəf imtahanı, birlik və mətinlik məqamıdır. Xalqımız Vətən müharibəsi, habelə sonrakı antiterror tədbirləri zamanı öz müdrik rəhbərinin ətrafında sıx birləşib, ordumuza dayaq olub, belə vəhdətin gücü ön cəbhədə dəmir yumruq zərbəsinə çevrilib.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 66 nəfər hərbi qulluqçusu Vətən müharibəsindən sağ qayıtmayıb. Onların adları yaddaşlarda tarixləşib.

12318 saylı hərbi hissədə xidmət etmiş əsgər Osmanov Nəzir Rahib oğlu da Vətən müharibəsi şəhididir. Şəhidin ailə üzvləri, komandirləri və döyüşçü yoldaşları ilə əlaqə saxlayaraq onun haqqında geniş məlumatlar topladım.

O, 1998-ci il yanvarın 1-də Qax rayonunun Qıpçaq kəndində doğulub. Rahib Osmanov və Arzu Osmanovanın üç övladından biri, ailənin sonbeşiyi kimi boya-başa çatıb. Nərmin Osmanlı bacısı, Pərviz Osmanlı isə qardaşıdır. Qıpçaq kəndində yaşayan ailənin başçısı Qax Rayon Mərkəzi Xəstəxanasında nəzarətçi işləyir. A.Osmanova isə evdar qadındır. Nərmin müəllimədir. Pərviz mülki mühafizədə çalışır. Mehriban və zəhmətkeş ailədə böyüyən Nəzir mənəvi dəyərlərimiz, adət-ənənələrimiz ruhunda tərbiyə alıb. Ailə üzvlərinin sözlərinə görə, o, xaraktercə vicdanlı, istiqanlı, səmimi, həyatsevər, xeyirxah olub. İdmanla məşğul olmağa həmişə vaxt ayırıb, sağlam həyat tərzinə riayət edib.

Qıpçaq kəndindəki şəhid Mehdi Ziyadov adına tam orta məktəbi bitirib. Məktəbdə riyaziyyat, tarix, fiziki tərbiyə, çağırışaqədərki hazırlıq fənlərinə daha çox maraq göstərib. Müəllimlərinə hörmətlə yanaşıb. Onlar gəncin düzgün dünyagörüşünün formalaşması üçün zəhmətlərini əsirgəməyiblər.

Orta məktəbdən sonra Qax Rayon Peşə Liseyində təhsilini davam etdirən Nəzir geniş profilli traktorçu maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü ixtisas dərəcələrinə yiyələnib. Sürücü peşəsinə həvəsi və rəğbəti vardı. Öz peşəsində bacarıqlı və məharətli olmaq onun əsas məqsədlərindən biri idi.

2016-cı ilin iyul ayında Nəzir Daxili Qoşunların sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 və 16076 saylı hərbi hissələrdə xidmət keçərək əsgər borcunu layiqincə yerinə yetirib. 16076 saylı



hərbi hissənin komandirinin hərbi qulluqçunun ailəsinə göndərdiyi məktubda Nəzirin nümunəvi xidməti haqqında məlumat verilib, belə oğul tərbiyə etdiklərinə görə valideynlərinə minnətdarlıq bildirilib. Həmçinin o, hərbi hissə komandiri tərəfindən fərmanla da mükafatlandırılıb.

2018-ci ilin yanvar ayında Nəzir öz arzusu ilə sıralarımızda müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Bu qərarı onun şüurlu və düşünülmüş seçimi idi. Vətənpərvər əqidəli gənc kimi gələcəyini hərbi xidmətdə görürdü. Valideynləri bu qərarını dəstəkləyiblər.

Müddətdən artıq həqiqi hərbi xidməti 12318 saylı hərbi hissədə keçib. Xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı və sonra müvəffəqiyyətlə imtahan verərək xüsusi təyinatlı dəstənin avtomobil yarımqrupunun sürücüsü vəzifələrinə təyin edilib. Bu vəzifələrdə komandanlığın etimadını doğruldaraq dəfələrlə mükafatlara layiq görülüb. Xidmət etdiyi bölmələrdə silahdaşlarının hörmətini qazanıb. Şəxsi heyət arasında etik davranışı, icraçılığı, səliqə-sahmanı, döyüş və mənəvi-psixoloji hazırlığı ilə fərqlənib. Bununla yanaşı, sıralarında olduğu bölmələrin yerinə yetirdikləri vəzifələrin mahiyyətini düzgün qavrayıb. Xüsusən avtomobil yarımqrupunun sürücüsü olaraq praktiki fəaliyyətdə peşəkarlığı komandirlərinin diqqətindən yayınmayıb.

Vətən müharibəsi iştirakçısı, 12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri polkovnik-leytenant Anar Rizvanov məlumat verdi ki, tabeliyində xidmət etmiş Nəzir hərbi anda sadiq, ürəyi Vətən və xalq sevgisi ilə döyünən, xüsusi təyinatlı adını uca tutan, verilən bütün tapşırıqların öhdəsindən gələn, peşəsinin xüsusiyyətlərini mükəmməl bilən, bu sahədə bacarıqlarını təkmilləşdirməyə səy göstərən hərbçi kimi yaddaşında qalıb.

Dəstə komandirinin bildirdiyinə görə, 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladıqdan sonra tabeliyindəki şəxsi heyətlə 16077 saylı hərbi hissəyə göndərilib. Hərbi hissədə oktyabr ayının ortalarınadək ehtiyat qüvvə qismində yerləşiblər. Döyüş əməliyyatlarında iştiraka hazırlıq görülüb. Oktyabrın 15-dən etibarən Cəbrayıl rayonunun ərazisinə gəliblər. Beləliklə, Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları ilə birlikdə ayrı-ayrı istiqamətlər üzrə torpaqlarımızın müdafiəsi və azad olunması uğrunda müxtəlif döyüş tapşırıqlarının icrasına başlayıblar. Vətən müharibəsinin gedişində dəstənin 9 nəfər hərbi qulluqçusu şəhadətə yüksəlib. Onlardan biri və ilki Nəzirdir. Nəzirin döyüş yolu Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərindən keçib. Döyüşçü sürücü olaraq ön cəbhədə ona verilən tapşırıqları qətiyyətlə yerinə yetirib. Şəxsi heyətin, sursatların və digər növ mühüm təchizatların ön mövqelərə daşınması, yaralıların təxliyyəsində cəsarət, qorxmazlıq, habelə peşə məharəti nümunəsi göstərib.

Polkovnik-leytenant A.Rizvanov danışdı ki, oktyabrın 31-də Xocavənd rayonunun Hadrut qəsəbəsində cəmləşiblər. Orada Şuşanın azad olunması uğrunda əməliyyata cəlb edilmələri barədə döyüş tapşırığı verilib. Hərbi avtomobillərdən ibarət karvanla Xocavənd rayonunun bəzi kəndlərindən ötməklə Şuşaya doğru hərəkət ediblər. Noyabrın 1-nə keçən gecə rayonun Böyük Tağlar kəndi istiqamətində meşəlik ərazini keçərkən karvan düşmən topları və minaatanlarından şiddətli atəşə tutulub. Həmin vaxt Nəzir partlayan mərmi qəlpələrindən ağır yaralanaraq şəhid olub.

Daxili Qoşunların sabiq hərbi qulluqçusu, Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan gizir Amil Rəhimov xüsusi təyinatlının yarımqrup komandiri olub. O, diqqətə çatdırdı ki, Nəzir intizamlı, vəzifə borcuna vicdanla yanaşan, əzmkar, təlimlərdə fəal olan, komandirlərinin və hərbçi yoldaşlarının hörmətini saxlayan, peşə hazırlığında nailiyyətlər qazanan, təhkim edilən avtomobili yola çıxarkən hər bir vəziyyətdə bacarıqla sürən, bilik və təcrübəsini artırmaq üçün çalışan xüsusi təyinatlı idi. Amil söylədi ki, Nəzir müharibə zamanı son nəfəsinədək döyüşçü amalına sadiq qalıb.

Vətən müharibəsi iştirakçıları: Daxili Qoşunların Veteranlar şurasının üzvü, qazi, istefada olan gizir Şiraz Həsənov, 12318 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin avtomobil yarımqrupunun sürücüsü baş çavuş Turab Beydiyev və sabiq hərbi qulluqçumuz, hazırda digər qurumda xidmət edən çavuş Xəzər Məmmədli də şəhidlə bağlı xatirələrini mənimlə bölüşdülər. Onların sözlərinə görə, Nəziri xüsusi təyinatlı dəstədə xidmət etdiyi vaxtdan tanıyıblar. Nəziri etibarlı silahdaş, qayğıkeş yoldaş və cəsur xüsusi təyinatlı kimi heç vaxt unut-



mayacaqlarını vurğuladılar. Qeyd etdilər ki, o, xidmət mənafeyinə zərər vuran, hərbçi nüfuzuna xələl gətirən hərəkətlərə yol verməyib. Məsləyinə qəlbən bağlılığı ilə seçilib. Koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunmasına cəlb olunub, Bakı və Salyan şəhərlərində ayıq-sayıq xidmət aparıb. Müharibə vaxtı ön cəbhəyə ruh yüksəkliyi ilə gedib. Deyirmiş ki, uzun illər həsrətini çəkdiyimiz torpaqlara bizim də ayaqlarımız dəydi, şərəfli vəzifəni yerinə yetirənlərdən biri kimi qürur hissi yaşayıb.

Son döyüşündə karvan şəklində hərəkət edən hərbi avtomobillərdən birini Nəzir idarə edib. Karvan ermənilərin artilleriya atəşinə məruz qalarkən avtomobillərdən düşərək ətraf əraziyə səpələniblər. Minaatan mərmisinin qəlpələri onu başından ağır yaralayıb. Həmin anda Turab və Xəzər yanında olublar. Şirazla əsgər Kazım Cumalıyev kömək etmək üçün özlərini silahdaşlarına yetiriblər. Çavuş Elçin Səmədov Nəzirə ilk tibbi yardım göstərsə də, o, canını tapşırıb. Orada bəzi döyüşçülər yaralanıblar.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 10 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Nəzirin 2020-ci il noyabrın 1-də döyüş meydanında hərbi əməliyyat nəticəsində odlu silah və digər adi silah növləri ilə törədilmiş zədələnmələr səbəbindən şəhid olduğu yazılıb.

Hərbi qulluqçumuz Qıpçaq kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin Müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə əsgər N.Osmanov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

Qeyd edim ki, Nəzir öz nəslinin yeganə şəhididir. Babası Hilal Aslanov 1941-1945-ci illərdə alman faşistlərinə qarşı vuruşub, 1981-ci ildə dünyasını dəyişib.

Qıpçaq kəndindən 3 nəfər Vətən uğrunda şəhidlik zirvəsinə ucalıb. Kənddə ailəsinin təşəbbüsü ilə Nəzirin xatirəsinə abidə-bulaq kompleksi yaradılıb və şəkli əks olunan plakat quraşdırılıb. Ailəsinin yaşadığı evdə xatirə guşəsi düzəldilib.




Qax rayonunda yerləşən 2 saylı və Qıpçaq kəndindəki tam orta məktəblərdə ayrı-ayrı tədris sinifləri şəhidin adını daşıyır.

Müxtəlif televiziya kanallarında döyüşçünün ömür yolu işıqlandırılıb. Sevindik Nəsiboğlunun "Möhtəşəm zəfərin nişanəsi", Səhər Şıxəli Manafın "Zəfər tarixinin qəhrəmanları. Qax şəhidləri" və Xavər Əfəndiyevanın "Qaxdan Qarabağa gedən yol" kitablarında xüsusi təyinatlı haqqında məqalələr, o cümlədən şeirlər yer alıb.

Nəzir subay idi, taleyinə şəxsi xoşbəxtliyi yazılmayıb, ancaq Vətənin səadəti naminə şəhadəti ilə ürəklərdə ölümsüzləşib. Ön cəbhədən sonuncu dəfə zəng vuranda anasına deyib ki, az qalıb, onu sevindirəcək. Qələbəmizə inamla döyüşdüyünü söyləyib.

Müharibədən sonra ata-anası Nəzirin şəhid olduğu ərazidə olublar, meşəlikdəki ağaclardan birinə qırmızı lentli şəkli və gül dəstəsi bağlanıb, ruhuna dualar oxunub.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# ALİ HƏRBİ MƏKTƏBİN KOMANDASI ÜMUMRESPUBLİKA BİLİK YARIŞINDA QALİBLƏR SIRASINDA QƏRARLAŞIB



Oktyabrın 18-də Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycan tarixi" mövzusunda IX ümumrespublika bilik yarışı keçirilib. Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə baş tutan, artıq ənənəyə çevrilən bu layihə Azərbaycan tarixinin və bu il 100 illiyi qeyd edilən Ümummilli Lider Heydər Əliyevin həyatının, çoxşaxəli fəaliyyətinin, zəngin siyasi irsinin tədqiqi, öyrənilməsi, habelə təbliği məqsədi daşıyır.

Müstəqilliyin Bərpası Günündə təşkil edilən yarışda əvvəlcə Ümummilli Lider Heydər Əliyevin gənclərlə görüşlərini, Ulu Öndərin gənclərə olan mühüm tövsiyələrini və Heydər Əliyev yolunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilməsini əks etdirən videoçarx nümayiş olunub.

Builki bilik yarışına ölkəmizin 50 ali təhsil müəssisəsinin komandaları qatılıblar. Yarış zamanı iştirakçılara verilən 36 sual "Heydər Əliyevin uşaqlıq və gənclik illəri", "Heydər Əliyev və Azərbaycanın müstəqillik illəri", "Heydər Əliyev və Qarabağ həqiqətləri", "Azərbaycan Ordusunun Vətən müharibəsində zəfər yürüşü" və digər mövzuları əhatə edib.

Komandalar yarışa hazırlıq mərhələsində Heydər Əliyev Mərkəzində təşkil olunan təlimlərdə iştirak ediblər, onlara Heydər Əliyev Muzeyində saxlanılan arxiv materialları ilə tanışlıq imkanı yaradılıb.

Münsiflər heyətinin qiymətləndirməsinə əsasən, bilik yarışında Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası 1-ci, Daxili İşlər Nazirliyinin Polis Akademiyası 2-ci, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbi 3-cü yerləri tutublar. Qaliblərə mükafatları Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, eləcə də elm və təhsil naziri Emin Əmrullayev təqdim ediblər.

Bu təqdirəlayiq nəticə DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin tarixində bilik yarışlarında qazanılan ilk mühüm nailiyyətdir. Kursantlarımız: çavuşlar Çingiz Səfiyev, Ərşad Əliyev, kiçik çavuş Ömər Səfərli, əsgərlər Seymur Əhmədov, Hümməti Əlizadə, Fərid Məhərrəmov, Sənan Quliyev, Rauf Abbaslı yarışda öz bilik və bacarıqları ilə fərqləniblər.

Kursantlarımızı təbrik edir, hərbi təhsillərində uğurlar arzulayırıq.

**Yalçın Abbasov**

# NÜMUNƏVİ XİDMƏT

# BUXAREST ŞƏHƏRİNDƏ KEÇİRİLƏN KURSDA ZABİTİMİZ ÖLKƏMİZİ UĞURLA TƏMSİL EDİB



Sentyabrın 25-dən oktyabrın 6-dək Rumıniya Respublikasının paytaxtı Buxarest şəhərində yerləşən Milli Müdafiə Universitetində "Sülhə Dəstək Əməliyyatları" kursu keçirilib.

Sözügedən universitetin peşəkar müəllim və professor heyəti tərəfindən təşkil edilən məşğələlərə Azərbaycan, Kolumbiya, Gürcüstan, Ermənistan, Şimali Makedoniya, Moldova, Rumıniya, Tunis, Bosniya və Hersoqovina, İordaniya və İspaniyadan ümumən 16 nəfər hərbi qulluqçu qatılıb.

Qeyd edək ki, Daxili qoşunların baş idarəsinin qərargahının əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsi rəisinin müavini polkovnik-leytenant Müşfiq Hətəmov kursda iştirak edib.

Nəzəri məşğələlər formatında keçirilən kursda NATO böhran xəbərdarlıq vəziyyətləri (halları) və böhranlara müdaxilə sistemi, Avropa Birliyinin ümumi təhlükəsizliyi müdafiə siyasəti, BMT-nin sülhə dəstək əməliyyatlarının təsnifatı, BMT-nin cari və keçmiş sülhün qorunması əməliyyatlarında müəyyən edilən, yəni öyrənilən dərslər, danışıqlar və vasitəçilik tədris olunub. Həmçinin iştirakçılara müasir sülhə dəstək əməliyyatlarında mülki-hərbi əməkdaşlıq və mülki işlər, çoxmillətli əməliyyatlar departamenti, böhranların aradan qaldırılması və idarə edilməsi, sülhməramlı əməliyyatların planlaşdırılması üzrə məşğələlər keçirilib.

Məlumat üçün bildirək ki, ölkəmizi uğurla təmsil edən zabitimiz "Sülhə Dəstək Əməliyyatları" kursunu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat təqdim olunub.

**kapitan Nigar Ağayeva**

# DAXİLİ QOŞUNLARA ÇAĞIRIŞÇILARIN QƏBULU BAŞA ÇATIB



Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, oktyabr ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmri ilə çağırışçıların tibbi müayinələrinin aparılması və mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili qoşunların baş idarəsinin qərargahının təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.



Bu sahədə görülən işlərin, verilən tapşırıqların icrası ilə bağlı məlumat verən 25031 saylı hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyev bildirib ki, çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdəndir.



Çağırış qrupunun rəhbəri polkovnik X.Bağırov məlumat verib ki, hərbi-həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən qəbul məntəqəsinə daxil olan çağırışçılarla söhbətlər aparılıb. Söhbət zamanı onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilib. Həmçinin hərbi xidmətin üstünlükləri izah edilib, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilib. Bütün məlumatlar toplandıqdan sonra isə hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.



Daha sonra çağırışçılar növbə ilə həkim ekspert-nevropatoloq, həkim-terapevt, ordinator-ümumi cərrah, həkim-stomatoloq, həkim-endokrinoloq və baş ordinator-rentgenoloq tərəfindən müayinə olunublar, ümumi bədən baxışı və sonda flüoroqrafik müayinə keçirilib.

Bununla yanaşı, çağırışçılar əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunublar.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu tərəfindən müvafiq məsləhətlər verilib.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilib.

**kapitan Nigar Ağayeva**

# NÜMUNƏVİ XİDMƏT

# TƏLƏBKAR VƏ QAYĞIKEŞ MANQA KOMANDİRİ

16076 saylı hərbi hissənin nümunəvi xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından olan kiçik çavuş Yusif Salmanov mühafizə bölüyündə xidmət edir. Bölük komandiri baş leytenant Aqil Tağıyev tərəfindən müsbət xarakterizə olunan Yusif qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.

Kiçik çavuş Y.Salmanov 2005-ci ilin yanvar ayının 5-də Sabirabad rayonunun Əsədli kəndində anadan olub. İbtidai təhsilini doğma kəndində alan Yusif 2015-ci ildən 2022-ci ilədək Bakı şəhərinin Bakıxanov qəsəbəsində yerləşən Respublika Olimpiya Liseyində oxuyub. Uşaqlıqdan idmanın güləş növü ilə məşğul olan hərbi qulluqçumuzun nailiyyətləri də var. Belə ki, o, Bakı şəhəri üzrə birincilik uğrunda keçirilən yarışın qalibi olub, Gürcüstanda keçirilən beynəlxalq turnirdə isə 2-ci yeri qazanıb.

2023-cü ilin yanvar ayında Yusif müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədən sonra xidmətini 16076 saylı hərbi hissədə davam etdirir. 2023-cü ilin avqust ayında hərbi hissədə təşkil edilmiş kiçik komandirlər kursunu müvəffəqiyyətlə bitirərək "kiçik çavuş" hərbi rütbəsi verilməklə manqa komandiri vəzifəsinə təyin edilib.



Kiçik çavuş Y.Salmanov tabeliyində olan əsgərlərə qarşı həm tələbkar, həm də qayğıkeşdir. Xidmətə ciddi münasibətilə seçilir. Manqa komandiri kimi icraçılığı, öz məsuliyyətini düzgün dərk etməsi, hərbi biliklərini artırmaq üçün səy göstərməsi onun müsbət xüsusiyyətlərindəndir. Ötən müddət ərzində bölüyün komandir heyəti və hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb.

**kapitan Şahin Cəfərzadə**

# MƏSULİYYƏTLİ VƏ İNTİZAMLI RABİTƏÇİ

99713 saylı hərbi hissənin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Raci Şükürzadə intizamı, çevikliyi ilə silahdaşlarından fərqlənir. O, 2001-ci il iyulun 28-də İmişli rayonunun Cəfərli kəndində anadan olub. Orta təhsilini 2007-2017-ci illərdə Cəfərli kənd tam orta məktəbində alıb. Orta məktəb illərində İmişli Rayon Mədəniyyət Mərkəzinin xalq çalğı alətləri şöbəsində tar ifaçılığını öyrənib. 2018-2022-ci illərdə Gəncə Dövlət Universitetinin iqtisadiyyat fakültəsində turizm-otelçilik ixtisası üzrə ali təhsil alıb. 2022-ci ilin iyul ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Hazırda 99713 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımının xətt nəzarətçisi vəzifəsindədir.

Təminat bölüyü komandirinin vəzifəsini müvəqqəti icra edən baş leytenant Kamran Orucov tərəfindən müsbət xarakterizə olunan hərbçi funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşır, verilən tapşırıqları dəqiq və keyfiyyətlə yerinə yetirir. Bölükdə keçirilən məşğələlərdə fəal iştirakı, xidmətdə sayıqlığı ilə fərqlənir. Rabitənin normativ müddətlərində tələb olunan keyfiyyətdə, bütün məlumatların ötürülməsinə hazır vəziyyətdə olması, aparatların, radiostansiyaların, rabitə və AİS vasitələrinin təyinatı üzrə istismar parametrlərinə uyğun olaraq daimi hazırlığını təmin etmək əsgər R.Şükürzadənin funksional vəzifələridir.



**kapitan Nigar Ağayeva**

# HƏRBİ XƏBƏRLƏR

**•YENİLİKLƏR•**

## Səudiyyə Ərəbistanı Fransadan xeyli sayda "Rafale" qırıcısı almaq istəyir

Səudiyyə Ərəbistanı Fransanın "Dassault Aviation" şirkətindən 54 ədəd "Rafale" döyüş təyyarəsi almaq niyyətindədir. "Poliqon" "La Tribune" nəşrinə istinadən xəbər verir ki, bunun üçün Səudiyyə Ərəbistanı "Dassault Aviation" şirkətindən noyabrın 10-na kimi qiymət təklifi göndərməsini istəyib.

Qeyd edək ki, Səudiyyə Ərəbistanı Fransanın "Rafale" qırıcılarından əvvəl Böyük Britaniyadan "Eurofighter Typhoon" döyüş təyyarələrini almaq istəyirdi. Ancaq Böyük Britaniya, İtaliya və İspaniya ilə birlikdə "Eurofighter Typhoon"un dörd istehsalçı ölkəsindən biri olan Almaniya uzun müddətdir ki, bu satışa icazə vermirdi. Məsələ ilə bağlı hətta Böyük Britaniya və Almaniya hökumətləri arasında bir sıra danışıqlar aparılsa da, bunlar heç bir nəticə verməyib. Beləliklə, Səudiyyə Ərəbistanı sonda "Rafale" qırıcılarını almaq qərarına gəlib.



TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000